**İlhamə Dağlı**

# Türk əsgərləri

Turan ellərinin igid ərləri,
Zəfərlə keçdilər dağ, dərələri.
Vətənə uzanan namərd əlləri,
Qırdılar, kəsdilər türk əsgərləri.

Vətən namusumuz, vətən arımız,
Vətən şərəfimiz, vətən qanımız.
Vətən kimliyimiz, vətən yarımız,
Torpağı öpdülər türk əsgərləri.

Doğulur anadan türklər cəngavər,
Döyüş meydanında göstərir hünər.
Düşməndən öc alıb olur bəxtəvər,
Qəlbləri fəth edər türk əsgərləri.

Hilal da vurulub türk bayrağına,
Ulduzdan xal qoyub al yanağına.
Səmanı, çəməni çəkib yanına,
Birgə yürüdülər türk əsgərləri.

Türküstan.- 2020.- 15-21 dekabr. S. 21.